# Doktorantların və gənc tədqiqatçıların respublika elmi konfransı "Multikulturalizm ili"nə həsr olunub







Mayın 25-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə doktorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransı öz işini başa çatdırıb. İki gün (mayın 24-25) davam edən və hər il ənənəvi olaraq keçirilən konfrans bu dəfə Azərbaycanda "Multikulturalizm ili"nə həsr olunub.

Açılış mərasimində təhsil nazirinin müavini Ceyhun Bayramov, akademiklər, ali təhsil müəssisələrinin rəhbərləri, tanınmış ziyalılar, doktorantlar və gənc tədqiqatçılar iştirak ediblər.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Ceyhun Bayramov bildirib ki, builki konfrans "Multikulturalizm ili" çərçivəsində və ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş tədbirlər sırasında özünəməxsus yer tutur. Konfrans gənclərə imkan verir ki, Azərbaycanın davamlı inkişafını və çiçəklənməsini təmin edən elmi baxışlarını, yaratdıqları yeni nəzəriyyə və texnologiyalar haqqında fikirlərini bölüşsünlər, biliklərini daha da zənginləşdirsinlər.

Müasir cəmiyyətdə siyasi, iqtisadi və informasiya sahələrində rəqabətin gücləndiyini nəzərə çatdıran nazir müavini təbii resursların kəskin azaldığı və ekoloji balansın pozulduğu bir dövrdə elm və təhsilin rolunun sürətlə artdığını söyləyib. Özünün inkişaf strategiyasını insan kapitalının və intellektual resursların üzərində quran ölkəmiz Prezident İlham Əliyevin dediyi kimi, neft kapitalının insan kapitalına çevrilməsi prinsipinə sadiqdir.

Tədbirdə xüsusi qeyd olunub ki, təhsil sahəsində aparılan islahatlar yeni düşüncəli və geniş dünyagörüşlü gənclərin hazırlanması məqsədlərinə yönəlib. Təhsil alanların tədqiqat aparması, yeni informasiya texnologiyalarından istifadə etməsi və xarici dilləri öyrənməsi üçün geniş imkanlar yaradılıb.

Elm və təhsilin səmərəli əlaqələrinin genişləndirilməsinin əhəmiyyətinə toxunan Ceyhun Bayramov "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qarşıya qoyduğu strateji istiqamət və hədəflərin Azərbaycan təhsilinin XXI əsrin çağırışlarına uyğun inkişaf meyillərini müəyyənləşdirdiyini bildirib. Ali təhsil müəssisələrində çalışan elmi-pedaqoji kadrların orta yaş göstəricilərinin yüksək olması gənc elmi kadrların hazırlanmasını qarşıda duran əsas vəzifələrdən biri kimi aktuallaşdırır.

C.Bayramov Təhsil Nazirliyi tərəfindən elm və təhsilin gələcək inkişafı üçün nəzərdə tutulmuş vacib tədbirləri də diqqətə çatdırıb, gənclərin potensialının tam realizə edilməsinə imkan verən təhsil mühitinin yaradılmasının zəruriliyini vurğulayıb: "Bu baxımdan gənclərimizin yüksək intellektə malik hissəsi xüsusi qayğı ilə əhatə olunur və onların özlərini təsdiq etməsi üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılır. İntellektual potensialın qorunması məqsədilə yüksək ixtisaslı kadrların fasiləsiz hazırlanması prosesi həm respublikamızın, həm də xarici ölkələrin ən nüfuzlu universitetlərində həyata keçirilir".

Nazir müavini onu da bildirib ki, "Thomson Reuters" agentliyinin bazasına daxil olan jurnalların elmi ictimaiyyət arasındakı nüfuzunu nəzərə alaraq, eləcə də Azərbaycan alimləri və doktorantları üçün bu bazadan istifadə etmək imkanını yaratmaq və onların elmi fəaliyyətinə dair elmimetrik göstəriciləri əldə etmək məqsədilə Təhsil Nazirliyi "Thomson Reuters" agentliyi ilə əməkdaşlıq haqqında müqavilə imzalayıb. Müqaviləyə əsasən, ölkəmizin 40 ali təhsil müəssisəsinə abunə vasitəsilə bu agentliyin məhsul və xidmətlərinə, eləcə də "Web of Science" platformasının bazasına çıxış imkanı yaradılıb. Azərbaycanın elmi nailiyyətlərinin beynəlxalq miqyasda tanınması, ali təhsil müəssisələrinin elmi-pedaqoji əməkdaşlarının fəaliyyətinin və nəşr aktivliyinin daha da yüksəldilməsi məqsədilə nazirlik "Thomson Reuters"in bazasına daxil olan jurnallarda çap edilmiş elmi əsərlərə görə hər ilin sonunda müəlliflərin mükafatlandırılması üçün müsabiqə keçirməyi nəzərdə tutur. Konfransın işinə uğurlar diləyən C.Bayramov xüsusi vurğulayıb ki, müstəqil Azərbaycanın firavan gələcəyi məhz gənclərin intellektual səviyyəsindən, milli və ümumbəşəri dəyərlərə dərindən yiyələnməsindən asılıdır.

Sonra çıxış edənlər gənclərin elmi tədqiqatlara cəlb olunmasının vacibliyini söyləyib, son illərdə bu istiqamətdə atılan addımların təqdirəlayiq olduğunu bildiriblər.

İki gün davam edən konfransa 20 ali təhsil müəssisəsindən və AMEA-dan 650 tezis təqdim olunub. Doktorantların və gənc tədqiqatçıların məruzələrinin dinlənilməsi və müzakirəsi üçün tanınmış alimlərin rəhbərliyi ilə 17 bölmə, o cümlədən multikulturalizm bölməsi yaradılıb.

Bildirilib ki, konfransın materialları Azərbaycan Dövlət Neft və Sənaye Universiteti tərəfindən nəşr olunaraq iştirakçıların istifadəsinə veriləcək.

Doktorantların və gənc tədqiqatçıların respublika elmi konfransının materialları Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər siyahısına daxildir.

***"Azərbaycan"***